

**Xaliq Rəhimli**

Sevgidən yazıram deyə,
Qəlbinə şübhə dolmasın.
Ürəyimi boşaldıram,
Yerin darısqal olmasın...

* * *

Bəxt üzünə gülməyib ki,
Sənə yaxın gəlməyib ki,
Eh, şairlər ölməyib ki,
Gözəllər nazdan kəsilə.

Dərin mətləblərə girmə,
Çoxu eşit, amma görmə,
Şükür elə, imkan vermə,
Qismətin azdan kəsilə.

Nə yazım könlün xoş ola,
Ürəyin qəmnən boşala,
əyri əyridən beş ala,
Düz adam düzdən kəsilə.

Ömür olub düyün-düyün,
Yoxdu daha o gördüyün,
Vay o günə könül, bir gün,
Əlacım sözdən kəsilə...

* * *

Başladı ömrümün yarpaq tökümü,
Bu dünya gözümdə bir söz bükümü,
Vaxtında tutmuşam sevda yükümü,
Sonralar yüklənmək çətin olurmuş.

Gəncliyində öz əhdin var, öz andın,
Düz məsləkin, düz əqidən, düz andın,
Cavan vaxtı nə qazandın qazandın,
Sonralar "tüklənmək" çətin olurmuş

Şeir yazmaq - bu nə peşə şairim,
Salmısan özünü işə şairim,
Qoyma təbin kökdən düşə şairim,
Təzədən köklənmək çətin olurmuş...

* * *

Sənin bulud gözündən
Mənə nə xeyir gələr?...
Ömrümə yağış yağar
Xatirələr pöhrələr...

* * *

Bu həsrəti eşq veribdi pay kimi,
Ağrılara, acılara tay kimi,
Ömür çöldən səssiz axan çay kimi,
Əzilirəm, yoğruluram içimdə.

Bu nə sirdir, görmək olmur fələyi,
Göynən gedir baş tutduqca kələyi,
Nə sərt gəldi zəmanənin küləyi,
Saman kimi sovruluram içimdə.

Tanrı dediyini deyə bilmirəm,
Fələk saydığını saya bilmirəm,
Mən xatirə xatırlaya bilmirəm,
Əvəzində qovruluram içimdə

Demirəm ki, əlim yerdən üzülüb,
Etiraflar növbə - növbə düzülüb,
Günahlarım tövbə-tövbə düzülüb,
Yavaş-yavaş doğruluram içimdə...

* * *

O da bir bəxtdi fırlanır,
Quruca taxtdı fırlanır,
Gör bir nə vaxtdı fırlanır,
Oxu yeyilib dünyanın.

Bu qədər günahmı olar,
Ya naləmi, ahmı olar,
Bu qədər silahmı olar,
Beli əyilib dünyanın.

Gözümüz yaşla dolsa da,
Ümid Allaha qalsa da,
Günahkar bəndə olsa da,
Üzü söyülüb dünyanın.

Yazdıqlarım yalan, hədər,
Qalan deyil, gəldi-gedər,
Görürəm ki, mənə qədər,
Sözü deyilib dünyanın...

* * *

Tutdun ayrılıq yolunu,
Mənə qalan sazım oldu.
Bir az da xatirə götür,
Bəlkə yolda lazım oldu...

* * *

Hər zaman bəhər gətirmir,
Bu işləri duymaq gərək.
Beynimiz torpaq kimidi,
Hərdən dincə qoymaq gərək...

* * *

Sevgimizə əhsən deyib,
Gənclik bizi yola saldı.
Kədər çox atılıb düşdü,
Həsrət yana-yana qaldı.

Hamar olmadı yolumuz,
Çətinə dözüb gəlmişik.
Azımızı, çoxumuzu,
Qismətə yozub gəlmişik.

Nəfsim mənnən yola getdi,
Onu sirdaşım sayıram.
Sərvət, qızıl əvəzinə,
İndi söz xırdalayıram.

Dünyanın havası ağır,
Fələk saydığını saydı.
Tanrını görənə qədər,
Yaşamaq nəsib olsaydı....

Düzdü qəm qəmi gətirər,
Dərdlərə gülən yaxşıdı.
Hara gedir bəs bu dünya?
Eh, Allah bilən yaxşıdı....

* * *

Baxırsan, söz yerində,
Saqqal, bığ, üz yerində,
Salavat öz yerində,
Mollanı aş saxlayır.

Nə büdrə, nə də axsa,
Allah üzünə baxsa,
Unudulardı yoxsa,
Şeytanı daş saxlayır.

Qovğa var hər tərəfdə,
Həm xeyir, şər tərəfdə,
Hərəmiz bir tərəfdə,
Salamat baş saxlayır...

Kaspi 2019.- 23-25 noyabr.- S.23.